# İstedadlı uşaqlarla işləyən müəllimlərin psixoloji xarakteristikası

**Zəkiyyə Namiq qızı Ağayeva**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** zekiyye.huseynova@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova,
psixol.ü.f.d., dos. Q.V. Rəhimova

**Açar sözlər:** istedadlı uşaqlar, yaradıcı potensial, peşəkar fəaliyyət, özünü- reallaşdırma, erudisiya, səriştə

**Ключевые слова:** талантливые дети, творческий потенциал, профес-сиональная деятельность, самореализация, эрудиция, компетентность

**Key words:** talented children, creative potential, professional activities, self - realization, erudition, competence

İstedadlı uşaqlarla yalnız geniş erudisiyalı, davranışda çevik, həvəsli, ünsiyyətdə açıq olan istedadlı və yaradıcı müəllimlər işləyə bilərlər. Fikrimizcə, müəllimdə bir-biri ilə qarşılıqlı əlaqəsi olan psixoloji xüsusiyyətlər cəmlənmişdir. Bu psixoloji xarakteristikaya aid edilir: müəllimin ümumi erudisiyası, istedadlı uşaqların xüsusiyyətləri daxil edilmiş dərin biliklər, istedadın təzahürünü əks etdirən mövcud üsullar, o cümlədən onların inkişafının üsul və vasitələri, müəllim şəxsiyyətinin keyfiyyətləri, onun fəaliyyət üslubları, onların şagirdlərlə ünsiyyətinin xarakteri, onun əhatə olunduğu dəyər və yönəlişliklər. Bütün sadalananlarla yanaşı müəllimin geniş əşyavi erudisiyaya, vərdişlərin əldə edilməsinə yönəldilmiş pedaqoji-psixoloji biliklərə yiyələnməsini də qeyd etmək olar.

İstedadlı uşaqların təlimi ilə bağlı işləyən müəllimlərin qabiliyyətinə geniş erudisiya ilə yanaşı, ənənəvi pedaqoji texnika da daxil edilir. İstedadlı uşaqlarla işdə dərs deyil, uşağın fərdi fəaliyyəti planlaşdırılır ki, burada müəllim uşağın fikirlərini müşayiət etməli olur. Odur ki, istedadlı uşaqların təlimi ilə bağlı işdə müəllimin təşkilatçılığı və çevikliyi mühüm şərtdir. İstedadlı uşaqların impulsivliyi və dəyişkənliyi müəllimin səbrliliyi və inadkarlığı ilə məhdudlaşır.

İstedadlı uşaqların yaradıcı potensialının inkişafı üzrə işin effektli şərtlərinə yüksək səriştəlilik, elmi-nəzəri və metodiki hazırlıq şagirdlərlə bağlı yaranan çətinliklərin səbəblərini müəyyən etmək qabiliyyəti, habelə ona zəruri evristik informasiyalarla kömək etmək, mühakimələri yeni həllərin axtarışına və təhlilinə yönəltmək, o cümlədən öz fəaliyyətini planlaşdırmaq və şagirdlərə planlaşdırmanı öyrətmək, onların müsbət qərarlarını qiymətləndirməyi aid edirlər.

Müəllim təlim prosesində şagirdlərin marağının yüksəldilməsi ilə bağlı yönəlişlikdə fəaliyyətini planlaşdırmağı bacarmalıdır. Bununla yanaşı diaqnostik nəticələrin hesabatında fərdi yanaşmadan istifadə etməlidir. Onun peşə fəaliyyəti sistemlilik prinsipinə cavab verməli, o cümlədən operativliyi və obyektivliyi ilə fərqləndirilməli, şagirdləri üçün xüsusi təlim-idraki situasiya yaratmalıdır.

Müəllimin şagirdlərlə qarşılıqlı fəaliyyəti praktik işlə, nəzəri hazırlıqla və yaradıcı fəaliyyətlə birləşdirməyi bacarmalıdır. Şagirdlərlə əks-əlaqənin həyata keçirilməsi üsullarına

yiyələnmədə o uşağın stimullaşdırıcı fəaliyyətini təmin etməli, ona adekvat yardım göstərməli, ona özünəgüvənliliyi və özünəhörməti aşılamalıdır. Müəllim və şagirdlərin birgə fəaliyyəti, vasitə və üsulları təlim prosesinin təşkilinə kömək etməlidir.

Müəllim öz peşəkar fəaliyyətində analitik diaqnostik bacarıqlara yiyələnməli, şagirdlərin inkişafı məqsədlərinə nail olmasında təlim və tərbiyə situasiyasından düzgün istifadə etməlidir. İstedadlı uşaqların təlimi ilə bağlı işləyən müəllimin mühüm vəzifələrinə uşağın inkişaf və fəaliyyətinin tənzimlənməsi və korreksiyası, o cümlədən qiymətləndirmə, həvəsləndirmə, inkişafetdirici situasiyada modelləşdirmə aid edilir.

Müəllimin səriştəliliyi mühüm amil kimi onun pedaqoji bacarıqları əsasında formalaşır. Odur ki, müəllim özünün peşə səriştələrini artırmaqdan ötrü daim peşə bacarıqlarını möhkəmləndirməli, inkişaf etdirməli və yeni bacarıqların yaranmasına səy göstərməlidir. Səriştə - məqsədə nail olmaq üçün müəllimin vəzifələrinə daxil edilən işlərin öhdəsindən gəlməsidir.

İstedadlı uşaqlarla müəllimin uğurlu işi onlarla iş strategiyalarının düzgün seçilməsindən asılıdır. Bu strategiya uşağın fərdi dərketmə strategiyalarından çox asılıdır. İstedadlı uşaqlarla işdə şagirdin məntiqi fikirləri müəllim üçün gözlənilməz əlaqə və assosiasiya yaratmağa cəhd göstərməsi kimi nəzərdən keçirilir. Bu zaman müəllim şagirdlərini məlumatlandırmağa və qiymətləndirməyə cəhd göstərir.

Müəllim və şagirdlərin əməkdaşlığı şagirdin emosional-iradi sferasının və intellektual komponentlərinin ardıcıllıqla və mərhələli inkişafına yönəldilməlidir. Bəzən inkişaf kifayət qədər olmadığından o istedadın təzahürünə maneə yaradaraq inkişafı ləngidir. Lakin müəyyən komponentlərin formalaşması avtomatik olaraq digərlərini də inkişafa aparır, həmin inkişaf prosesində uşağın təfəkkürü təşəkkül tapır. İstedadlı uşaqların təlimi ilə bağlı işləmək istəyən müəllimlərin seçilməsində məktəb direktoru müəllimin pedaqoji fəaliyyət üslubunu təhlil etməlidir ki, burada onun bir çox şəxsi keyfiyyətləri və xarakteri öz əksini tapsın.

M.A.Xolodnaya uşaqları bir çox kateqoriyalara: "səriştəlilər", "parıldayanlar", "zəkalılar", "kreativlər", "talantlar", "müdriklər"ə ayırmışdır (4). Fikrimizcə, belə bölgü bütünlükdə müəllimlərə də aiddir. Bu kateqoriyaya aid olanlardan biri əhəmiyyətli dərəcədə müəllimin istedadlı uşaqlarla ünsiyyətinin iş üslubunu müəyyən edir. Odur ki, hər bir qrupu öz məzmunu və əlamətləri ilə xarakterizə etməyə və həmin əlamətlərə görə müəllimin gələcəkdə öz ənənəvi işini planlaşdırmasına, eləcə də uşaqlarla aparacağı işin istiqamətini müəyyən etməsinə cəhd göstərdik.

Təlim prosesində "səriştəlilər" qrupuna daxil olan müəllimlər öz erudisiyaları ilə səciyyələnirlər. Bu onlara sinifdəki şagirdlərlə ünsiyyətcil və maraqlı olmağa imkan verir. Belə müəllimlər dərs zamanı verilən suallara dəqiq cavablar verməyə və əlavə informasiyaları dinləyənlərə çatdırmağa qadirdirlər. Onların fəaliyyətinin istiqaməti əşyavidir. Belə müəllimlərin iş üslubu frontaldır, çünki onlar bütün siniflə və ya ayrılıqda şagirdlərlə bərabər işləməyə üstünlük verirlər. Onlar informator tipinə məxsusdurlar.

Təlim prosesində "parıldayanlar" qrupuna daxil olan müəllimlər daha geniş erudisiyaya malik olmaqla pedaqoji texnikaya yiyələnirlər. Lakin şagirdlərlə iş prosesində seçdikləri təlim üsulu daha çox xarici effektlərə yönəlir. Bu üsullar onların qarşılarına qoyduqları vəzifələrin həlli üçün zəruridir. Dərsin gedişi çox vaxt şagirdlərin diqqətini əsas olanlardan yayındırır. Bu qrupun müəllimləri apardıqları dərsin daha cəlbedici və maraqlı olmasına cəhd göstərsələr də çox vaxt dərs əyləncəyə çevrilir.

Hətta bu "ssenari" şagirdlərin cavab reaksiyalarına səbəb olmasa belə müəllim öz işini davam etdirir. Müəllim şagirdlərini birgə fəaliyyətə cəlb edir, əgər onların verdikləri cavablar

onu qane edirsə, belə müəllim onları "uğurlu" şagirdlər" kimi dəyərləndirir. Əgər şagirdlər sualların cavablarında yanlışlıqlara yol verərlərsə, o zaman onlar müəllimin "ssenarisi"ndən uzaqlaşdırılır və bütün "rolları" müəllim özü icra etməli olur. Bu qrupu təmsil edən müəllimlər şagirdlərini dərsin gedişində maraqlı manera ilə cəlb edə bilərlər. Burada faydalılıqdan söhbət gedə bilməz. Belə müəllimlərin istedadlı şagirdlərinə yüksək nəticələr nümayiş etdirə bilmirlər ki, bu da onların psixoloji hazırlığa malik olmamalarının nəticəsidir.

Təlim prosesində "zəkalılar" qrupuna daxil olan müəllimlər başa düşürlər ki, dərsdə "xarici effektlər" onlara mane olmur, lakin yüksək nəticə əldə etmək üçün onlar əsas rol da oynamır. Onların işi daha çox ənənəvi metodikalara yönəlir ki, bu da nəticəyə istiqamətlənir. Belə müəllimlər özlərini daha çox yaddasaxlamanın geniş həcmi ilə dəyərləndirirlər.

"Kreativlər" qrupunu təmsil edən müəllimlər tez-tez kreativ müəllim cəhətlərini nümayiş etdirirlər. Belə müəllimlər yeni olanlara həvəslə reaksiya verir və özləri də fəallıqlarını nümayiş etdirirlər. Onlar peşə fəaliyyətində qabaqcıl iş təcrübəsini göstərməyin tərəfdarlarıdırlar. Bu qrupa daxil olan müəllimlər nəzarətdən çox uşaqları öyrənməyə meyllidirlər. Onlar dərslərini vaxt çərçivəsində qurmur, lakin öz emosional vəziyyətlərini saxlamağa qadirdirlər, şagirdlərinin əməyinə hörmət onlarda kifayət qədər deyil.

Təlim prosesində "talantlar" və "müdriklər" qrupunu iki qrupa ayırmışıq. Pedaqoji talant pedaqoji müdriklikdir. Fikrimizcə, onlar birgə fəaliyyətdə düzgün strategiya seçir, bu müəllimlərin pedaqoji fəaliyyəti idraki çətinliklərin həllinə istiqamətlənir. Onlar yüksək keyfiyyətli, rabitəli nitqləri, zəngin söz ehtiyatları, habelə dəqiq və aydın izahatları ilə fərqlənirlər. Bu müəllimlər çox məsuliyyətli olub öz hərəkətlərinə məsuliyyətlə yanaşırlar.

İstedadlı uşaqların təlimi ilə bağlı işdə müəllim fəaliyyətinin üslubunun əsas cəhətlərinə aiddir: nəzakətlilik və xeyirxahlıq, həssaslıq, prinsipiallıq, istənilən sualların həllində obyektivlik, işin sistemi və qaydası, o cümlədən şagirdlərin qarşısına dəqiq məqsəd və vəzifələrin qoyulması, işin icrasına nəzarət, şagirdin yaradıcı təşəbbüskarlığı və məsuliyyətliliyi, müstəqilliliyi, rəğbətləndirmə, uşağın tələbat və maraqlarına diqqət, uşağın idraki fəaliyyət üslublarındakı və xarakter xüsusiyyətlərindəki səhvlərə səbrlilik, təmkinlilik və s.

İstedadlı uşaqların inkişafı və təlimi üzrə fəaliyyət onun idraki bacarıqlarının formalaşmasının və yaradıcı yanaşmalarının mərhələli olmasıdır. Ona təklif edilən tapşırıqlar müəllim tərəfindən tədricən mürəkkəbləşdirilməli və fəaliyyət növlərinin ardıcıllıqla hesabatının aparılması zəruridir. Konsultasiya növləri və uşaqlara göstərilən kömək vaxtında göstərilməlidir. Müəllim azad yaradıcılıqla və məntiqi fəaliyyət arasındakı ciddi reqlamentli şərtlərə riayət etməyi bacarmalı, uşağın ailəsinə də bunu başa salmalıdır.

Belə müəllimin bilikləri istedadlı uşaqların davranışı və təfəkkür xüsusiyyətləri haqqında inforsiyalarla tamamlanmalı, şagirdlərin yaş və fərdi xüsusiyyətləri haqqında bilikləri geniş və dərin olmalıdır. Əqli istedadlı uşaqlarla fəaliyyətdə işin əsas formaları dəyişir: "sinif-iş" sistemi üçün xarakterik olan frontal iş forması ilə fərdi və qrup forması əvəz olunur.

K.Tekeks istedadlı uşaqlarla işləyən müəllimlərə və tərbiyəçilərə aşağıdakıları məsləhət görür:

- müəllim təlimdə aydın ifadə olunmuş yarış elementli oyunlardan çox istifadə etməməlidir, belə oyunlarda istedadlı uşaqlar əksər hallarda qalib çıxırlar ki, bu da oyun iştirakçılarında onlara nifrət hissi yarada bilər;
- müəllim istedadlı uşağı ən yaxşı və səliqəli işinə görə tərifləməkdə ifrata varmaqla, onda perfeksionist meyllərinin möhkəmlənməsinə yol verməməlidir;
- istedadlı uşağı qələbə kürsüsünə yüksəltmək, başqa şagirdlərin gözündə onu vunderkində

döndərmək məsləhət deyil;

- müəllim nəzərə almalıdır ki, istedadlı uşaqların əksəriyyəti sərt reqlamentləşdirilmiş, təkrarlanan məşğələləri pis qavrayırlar (5).

Təlim prosesində istedadlı şagirdlərlə əks-əlaqənin həyata keçirilməsi onların fəaliyyətini stimullaşdırmağı və onlara vaxtında və adekvat kömək göstərməril- məsini təmin etməli, onlarda özünəinam və özünəhörmət hissini təlqin etməlidir.

**Məqalənin aktuallığı.** Müəllim və şagirdlərin əməkdaşlığı şagirdin emosional-iradi sferasının və intellektual komponentlərinin ardıcıllıqla və mərhələli inkişafına yönəldilməlidir. İstedadlı uşaqların inkişafı və təlimi üzrə fəaliyyət onun idraki bacarıqlarının formalaşmasının və yaradıcı yanaşmalarının mərhələli olmasıdır.

**Məqalənin elmi yeniliyi.** İstedadlı uşaqlarla işləyən müəllimlərin psixoloji xarakteristikası işlənilmişdir. İstedadlı uşaqların təlimi ilə bağlı işdə müəllim fəaliyyətinin üslubunun əsas cəhətləri araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əlizadə Ə.Ə. İstedadlı uşaqlar. Psixopedaqoji məsələlər. Bakı: ADPU, 2005.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 2004.
3. Bayramov Ə.S, Əlizadə Ə.Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Çinar-çap nəşr. poliqrafiya mətbəəsi. Bakı, 2009.
4. Bəylərov E.B. İstedadlı uşaqların təliminin məzmununa dair // Psixologiya jurnalı, 2009, №1, s. 36-46.
5. Апарина О.Ю. Комплексная программа выявления творческих и интеллектуальных способностей детей /О.Ю.Апарина//Доп.образование и воспитание, 2012, № 7. С. 11-20.

**З.Н. Агаева**

## Психологические характеристики учителей, работающих с талантливыми детьми

## Резюме

В статье опубликовала психологические характеристики учителей, работающих с талантливыми детьми. Исследованы эффективные условия развития творческого потенциала талантливых детей. Автор отмечает, что успешная работа учителя с талантливыми детьми зависит от правильного выбора стратегий работы.

**Z.N. Agayeva**

## Psychological characteristics of teachers working with talented children

## Summary

The article published the psychological characteristics of teachers working with talented children. The effective conditions for the development of the creative potential of talented children were investigated. The author notes that the successful work of the teacher with talented children depends on the right choice of strategies of work.

**Redadaksiyaya daxil olub:** 06.09.2021